AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏSNİFATI

# *HÜQUQİ VAHİDLƏRİN TƏŞKİLATİ - HÜQUQİ FORMALARININ STATİSTİK TƏSNİFATI*

**AZT005-2001**

*Rəsmi nəşr*

**BAKI – 2001**

Azərbaycan Respublikası Dövlət
Standartlaşdırma və Metrologiya
Mərkəzində təsdiq edilib
Əmr № **43**
**"05" iyul 2001-ci il**

Azərbaycan Respublikası Dövlət
Statistika Komitəsinin **29 iyun**
**2001-ci il** tarixli kollegiya qərarı
ilə təsdiq edilmişdir

# *HÜQUQİ VAHİDLƏRİN TƏŞKİLATİ - HÜQUQİ FORMALARININ STATİSTİK TƏSNİFATI*

**Bu təsnifat Azərdövlətstandartın icazəsi olmadan rəsmi nəşr kimi tam və ya qismən yenidən çap oluna, çoxaldıla və ya yayıla bilməz**

Azərbaycan Respublikası Maliyyə, Əmək və
Əhalinin Sosial Müdafiəsi, Ədliyyə və Vergilər nazirlikləri,
Gömrük komitəsi,
Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzi,
Milli Bank və Elmlər Akademiyasının
İqtisadiyyat institutu ilə

**razılaşdırılmışdır**

**------------------------------------------------------------**

.

***Təsnifat «1998-2002-ci illərdə Azərbaycan Respublikasının dövlət statistika sistemində islahatların aparılmasına dair Dövlət Proqramı»na uyğun olaraq işlənib hazırlanmışdır.***

Təsnifat A.M.Vəliyevin rəhbərliyi ilə

A.H.Mansurov, F.H.Hacıyev və Q.F.Əliyev tərəfindən işlənib hazırlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏSNİFATI**

**HÜQUQİ VAHİDLƏRİN TƏŞKİLATİ-HÜQUQİ FORMALARININ STATİSTİK TƏSNİFATI**

**AZT005-2001**

**STATISTICAL CLASSIFICATIONS OF ORGANIZATIONAL - LEGAL FORM OF THE LEGAL UNITS**

Tətbiq edilmə tarixi 2001-08-01

# GİRİŞ

Hazırkı nəşr Dövlət Statistika Komitəsinin 15 noyabr 1995-ci il tarixli kollegiya iclasının qərarı ilə təsdiq edilmiş və 1 yanvar 1999-cu il tarixli AZT-005 №si ilə Azərbaycan Respublikası Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzində dövlət standartı kimi qeydiyyata alınmış Azərbaycan Respublikasında hüquqi vahidlərin təşkilati - hüquqi formaları təsnifatının (birinci versiya) yenidən baxılmış (ikinci versiya) variantıdır.

Yenidən baxılmanın əsas məqsədi statistik tədqiqatların əsası olan hüquqi vahidlərin təşkilati hüquqi formalarının Azərbaycan Respublikası Mülki məcəlləsinin müddəalarına uyğunlaşdırmaqdan ibarətdir. Təsnifatın təyinatı hüquqi vahidlərin (müəssisə, təşkilat, filial, nümayəndəlik və s.) təşkilatı - hüquqi formalar əsasında qruplaşdırılması və iqtisadi tədqiqatlarda istifadəsindən ibarətdir.

Təsnifatın ikinci versiyası Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzi tərəfindən qeydiyyata alınan tarixdən birinci versiya qüvvəsini itirmiş sayılır.

Huquqi vahidlərin təşkilati-hüquqi formaları təsnifatının əsasını aşağıdakı iqtisadi - statistik terminlər təşkil edir:

***Hüquqi vahidlər*** - Hüquqi vahid qanunla qəbul olunmuş hüquq və vəzifələri daşıyan vahiddir. Hüquqi vahidlər dedikdə, fiziki və hüquqi şəxslər başa düşülür.

***Fiziki şəxs*** - Fiziki şəxs hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir. Azərbaycan Respublikasında bütün vətəndaşlar,

Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fiziki şəxslərdir.

***Hüquqi şəxs*** - Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır.

***Kommersiya təşkilatı*** - Fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan hüquqi şəxslərdir.

***Qeyri kommersiya təşkilatı*** - Qeyri - kommersiya təşkilatı dedikdə, fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən hüquqi şəxslər və ictimai təşkilatlar başa düşülür.

***Müəssisə*** - Mülkiyyət formasından asılı olmayaraq qanuna müvafiq yaradılan və ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədi ilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyektidir.

***Yerli vahid*** - Yerli vahid dedikdə statistik vahidlər başa düşülür. Yerli vahidlər müəssisə və ya müəssisənin bir hissəsinin (emalatxana, fabrik, mağaza və ya anbar) müəyyən coğrafi yerdə yerləşməsinə uyğun gəlir.

***Törəmə təsərrüfat cəmiyyəti*** - Digər (əsas) təsərrüfat ortaqlığı və ya cəmiyyəti onun nizamnamə kapitalında üstün iştirakına görə və ya onlar arasında bağlanmış müqaviləyə müvafiq surətdə həmin cəmiyyətin qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malik olan təsərrüfat cəmiyyətlərinə törəmə təsərrüfat cəmiyyətləri deyilir.

***Asılı təsərrüfat cəmiyyəti*** - Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxu digər (üstün, iştirakçı) ortaqlığa və ya cəmiyyətə mənsub olan təsərrüfat cəmiyyətlərinə asılı təsərrüfat cəmiyyəti deyilir.

***Nümayəndəliklər*** - Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölmələr nümayəndəlik adlanır.

***Filiallar*** - Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölmələr filial adlanır.

Mülki məcəlləyə əsasən bütün hüquqi vahidlər aşağıdakı üç formada qruplaşdırılır:

***Fiziki şəxslər***
***Kommersiya təşkilatları***
***Qeyri - kommersiya təşkilatları***

***Fiziki şəxslər*** bölməsinə Azərbaycan Respublikasında bütün vətəndaşlar, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aiddir.

***Kommersiya təşkilatları*** bölməsi aşağıdakı təşkilati-hüquqi formaları özündə birləşdirir:

**1. ORTAQLIQLAR**
**11. Tam ortaqlıq**
**12. Kommandit ortaqlığı**

**2. TƏSƏRRÜFAT CƏMİYYƏTLƏRİ**
**21. Məhdud məsuliyyətli cəmiyyətlər**
**22. Əlavə məsuliyyətli cəmiyyət**

**3. SƏHMDAR CƏMİYYƏTLƏR**
**31. Açıq səhmdar cəmiyyəti**
**32. Qapalı səhmdar cəmiyyəti**

**4. KOOPERATİVLƏR**

***Qeyri - kommersiya təşkilatları*** isə aşağıdakı təşkilati-hüquqi formaları özündə birləşdirir:

**5. İctimai birliklər (təşkilatlar)**

**6. Fondlar**

**7. İttifaqlar**

*                    *

*

**8. DİGƏR TƏŞKİLATLAR**
**81. Digər kommersiya təşkilatları**
**82. Digər qeyri - kommersiya təşkilatları**

**9. İDARƏETMƏ ORQANLARI**
**91. Dövlət idarəetmə orqanları**
**92. Yerli özünüidarəetmə orqanları**

Hüquqi vahidlərin təşkilati-hüquqi formalarının təsnifatının strukturu aşağıdakı 2 hissədən ibarətdir:

**I. Кod hissəsi**
**II. Məna daşıyan hissəsi**

## 1. ORTAQLIQLAR

### 11. Tam ortaqlıq

İştirakçıları (tam ortaqları) nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olan və ortaqlığın öhdəlikləri üzrə onlara mənsub əmlakla məsuliyyət daşıyan ortaqlıqlar.

### 12. Kommandit ortaqlığı

Ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyan iştirakçıları (tam ortaqlar) ilə yanaşı ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların məbləği həddində risk daşıyan və ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən bir və ya bir neçə iştirakçısı - maya qoyanı (kommanditçi) olan ortaqlıqlar.

## 2. TƏSƏRRÜFAT CƏMİYYƏTLƏRİ

### 21. Məhdud məsuliyyətli cəmiyyət

Bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyətlər. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar.

### 22. Əlavə məsuliyyətli cəmiyyət

Bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyətlər. Belə cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə öz mayalarının dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilən, hamısı üçün eyni olan misli miqdarında özlərinin əmlakı ilə birgə subsidialar məsuliyyət daşıyırlar.

## 3. SƏHMDAR CƏMİYYƏTLƏR

### 31. Açıq səhmdar cəmiyyəti

Onlara  (iştirakçılara) mənsub səhmləri digər səhmdarların razılığı olmadan özgəninkiləşdirə bilən cəmiyyətlər (Bu cür səhmdar cəmiyyəti buraxdığı səhmlərə açıq abunə yazılışını və onların sərbəst satışını həyata keçirə bilər).

**32. Qapalı səhmdar cəmiyyəti**

Səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılan səhmdar cəmiyyətlər.

**4. KOOPERATİVLƏR**

Fiziki və hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub, iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədi ilə yaradılan təşkilatlar.

**5. İCTİMAİ BİRLİKLƏR (TƏŞKİLATLAR)**

Bütün ictimai və üzvlük təşkilatları (siyasi partiyalar, cəmiyyətlər, həmkarlar ittifaqları və s.), ictimai birliklər və dini təşkilatlar.

**6. FONDLAR**

Üzvlüyü olmayan, fiziki və (və ya) hüquqi şəxslərin könüllü əmlak haqları əsasında təsis etdikləri, sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai faydalı məqsədlər güdən təşkilatlar.

**7. İTTİFAQLAR**

Özlərinin fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərinin təmsil və müdafiə edilməsi məqsədi ilə qeyri - kommersiya təşkilatlarının yaratdıqları qurumlar.

**8. DİGƏR TƏŞKİLATLAR**

**81. Digər kommersiya təşkilatları**

Kommersiya təşkilatlarının nümayəndəlikləri, filialları, idarələr, bölmələr, törəmə təsərrüfat cəmiyyətləri, asılı təsərrüfat cəmiyyətləri və s.

**82. Digər qeyri - kommersiya təşkilatları**

Qeyri - kommersiya təşkilatlarının nümayəndəlikləri, filialları, idarələr, bölmələr və s.

## 9. İDARƏETMƏ ORQANLARI

### 91. Dövlət idarəetmə orqanları

Dövləti təmsil edən mərkəzi və yerli orqanlar, qanunvericilik.

### 92. Yerli özünüidarəetmə orqanları

Qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək imkanına malik olan qeyri - dövlət orqanları.

Bələdiyyə tərəfindən yaradılan və yerli əhəmiyyətli məsələləri həll etmək səlahiyyətləri verilən qurumlar.